Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir



# Möcüzələr adamı, Elişa

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Lazarus; Alastair Paterson

Uyğunlaşdıran: Ruth Klassen

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2021 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

Yer şumlamaq üçün kifayət qədər öküz yox idi.  Bir öküz də lazım idi.  Bu, Elişa adlı gənc kəndlini işindən saxlamırdı!



O, sadəcə olaraq çatışmayan öküzü əvəz edərək, digər öküzlə birgə işləyirdi. O yəqin ki, güclü, ağıllı, zəhmətkeş bir adam idi.





Elişa yer şumlayarkən, Allahın peyğəmbəri İlyas gəldi və onu çağırdı. Gənc adam Allahın qulu ilə olmaq üçün tarladan getdi. Bir gün Allah qasırğa ilə İlyası göylərə götürdü. İndi Elişa İsrail üçün Allahın peyğəmbəri idi.


Elişa İlyasın getməsinə görə kədərlənsə də, o, İlyasdakı güc kimi güc verməsindən ötrü Allaha dua etdi.
Elişa İlyasın cübbəsini götürdü və İlyas kimi axan çaya vurdu.  Su aralandı.
İndi Elişa Allahın onunla olduğunu bilirdi.



Elişa Bet-El şəhərinə qalxarkən, kiçik oğlanlar şəhərdən çıxdılar və onu lağa qoyub dedilər: “Rədd ol, keçəl, rədd ol, keçəl!”  Onlar Elişanın Allahın qulu olduğuna fikir vermirdilər. Onlarla dəhşətli bir şey baş verdi. Meşədən iki dişi ayı çıxıb onlardan qırx iki nəfəri parçaladı.



Bir gün Elişa borcunu qaytara bilməyən dul qadınla rastlaşdı.  Borc verən pulunu geri almaq üçün dul qadının iki oğlunu kölə kimi götürməyə hazırlaşırdı.



Elişa dedi:
“Get bütün qonşularından özün üçün boş qablar istə, …qoy çox olsun”. Allah o qadın üçün xüsusi bir şey etmək üzrə idi.

Dul qadının evində sadəcə balaca bir qabı var idi.  Amma həmin balaca qabdan bütün qabları doldurmaq üçün kifayət qədər yağ tökdü!  Əgər o günlərdə onların vannaları olsaydı, səncə Allah onları da doldurardı?  Dul qadın yağı satdı və oğullarını qurtardı.



Digər qadın və onun əri
Elişa oradan keçərkən
evlərində qalmaq üçün
ona evlərində xüsusi
otaq hazırladılar.
Otaqda onlar
yataq, süfrə,
taxt, bir də çıraq
qoymuşdular.
O otaq həmişə
Elişa üçün
saxlanılırdı.



Elişa bu ailəyə onların xeyirxahlıqlarının əvəzini necə ödəyə biləcəyini düşünürdü.  Onların övladlarının olmadığını eşidəndə, o, qadına onun güclə inanacağı bir şey dedi: “Bir ildən sonra bu fəsildə qucağında bir oğlun olacaq”.  Elişanın söylədiyi kimi qadın hamilə oldu və bir il sonra həmin fəsildə bir oğlan doğdu.



Bir neçə illər sonra uşaq bir gün biçinçilərlə birgə işləyən atasının yanına getdi. O, atasına “Başım ağrıyır, başım!” dedi. Atası nökərə dedi: “Onu anasının yanına apar”. Nökər onu götürüb anasının yanına gətirdi.



O, günortaya qədər anasının dizləri üstündə qaldı və sonra öldü.  Qadın yuxarı çıxıb uşağı Elişanın yatağı üstünə uzandırdı, sonra qapını arxasınca örtüb çıxdı.  Səncə, kim ona kömək edə bilərdi?



Sən Elişa dedin? Bəli! O, eşşəyə mindi və sürətlə onu tapmağa getdi. Elişa onun evinə gəldi, yuxarı otağa tək getdi və Rəbbə dua etdi. Allah oğlanı həyata qaytardı. Elişa qadını çağırdı və dedi: “Al oğlunu”. O yəqin ki, necə də xoşbəxt idi!





Suriyanın yaxınlığında Naaman adlı ordu başçısı yaşayırdı.  O, cəsur və güclü idi, ancaq cüzam deyilən dəhşətli dəri xəstəliyi var idi.

Naamanın arvadının İsraildən əsir götürülmüş balaca kölə qızı var idi.  Bu balaca qız dedi: “Kaş ki ağam İsraildəki peyğəmbərin yanında olaydı. O zaman peyğəmbər onun cüzamına şəfa verərdi”.



Naaman peyğəmbəri görmək üçün yola düşdü.  O, hədiyyə olaraq özü ilə gümüş, qızıl və gözəl paltarlar götürdü.





Elişanın qulu onun yanına gəldi və dedi: “Get, İordan çayında yeddi dəfə yuyun ki, bədənin sağalıb tər-təmiz olsun”. Naaman acıqlandı. O, öz ölkəsi Suriyanın təmiz çaylarında yuyuna bilməzdi? O hirslənib dönüb getdi.



Yaxşı ki, Naamanın qulluqçuları gəldilər və onu Elişanın əmrinə itaət etməsi üçün dilə tutdular. Beləliklə, Naaman İordan çayına enib yeddi dəfə suya baş vurdu.



Naamanın bədəni sağaldı!  Sonra Naaman həqiqi Allaha, Elişanın Allahına, ona cüzamdan şəfa verən Rəbbə səcdə etdi.



Allah Öz qulu Elişanı
hətta onun ölümündən
sonra da istifadə etdi.
Bir gün bir adam uzun
illər əvvəl Elişanın dəfn
olunduğu mağarada dəfn
olundu.  Ölü adamın
cəsədi peyğəmbərin
sümüklərinə toxunanda
adam dirildi və ayaqları
üstə durdu.  Həqiqətən,
Allah Öz sadiq qulu Elişa
vasitəsilə Öz qüdrətli
gücünü göstərdi.

Möcüzələr adamı, Elişa

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Padşahlar 2-13

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**